# Kənd təsərrüfatı kooperasiyası haqqında qanun qüvvəyə mindi

Dövlətimizin başçısı İlham Əliyev 18 iyul 2016-cı il tarixində «Kənd təsərrüfatı kooperasiyası haqqında» Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 270-VQ nömrəli Qanunun tətbiqi barədə fərman imzalayıb. Kənd təsərrüfatının inkişafında xüsusi rol oynayacaq bu qanunun məqsədi Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsulları istehsalçılarının könüllü birləşməsi əsasında iri kənd təsərrüfat müəssisələri yaratmaq, onların istehsal potensialından səmərəli istifadə etməklə, rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsulları istehsal etmək və məhsuldarlığı artırmaqdır.

Yeni qanun kənd təsərrüfatı kooperasiyasının formalaşmasına və inkişafına təkan verməklə yanaşı, kooperasiya iştirakçılarının iqtisadi, sosial və digər maraqlarının qorunmasında mühüm rol oynayacaq.

Qeyd olunmalıdır ki, ölkədə kənd təsərrüfatı sahəsinin rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə mane olan problemlər sırasında kiçik torpaq sahibliyi və kiçik ailə-kəndli təsərrüfatları xüsusi təsirə malikdir. Kənd Təsərrüfatı Nazirliyinin 2015-ci il üzrə subsidiya alan təsərrüfatlarla bağlı məlumatını təhlil edəndə aydın olur ki, respublika üzrə təsərrüfatların 50,08 faizinin əkin yeri 2 hektardan azdır. Ümumiyyətlə əkin sahəsi 5 hektardan az olan təsərrüfatlar 88,09 faiz təşkil edir. Bu kiçik təsərrüfatlar respublika üzrə əkin yerinin 49,5 faizinə sahibdirlər.

Respublika üzrə 50 hektardan çox torpaq sahəsi olan təsərrüfatlar cəmi təsərrüfatların 0,4 faizini təşkil edir və əkin yerlərinin isə 17,6 faizi iri təsərrüfatların payına düşür. Hazırda kiçik təsərrüfatların təşkilatlanma səviyyələrinin çox aşağı olması onların istər resurslara təminatında, istərsə də bazara çıxış məsələsində də ciddi çətinliklər yaradır. Məhz «Kənd təsərrüfatı kooperasiyası haqqında» qanun da onların könüllü surətdə birləşməsinə xidmət etməklə yanaşı, bazara çıxış imkanlarını da gücləndirəcək. Belə ki, qanuna əsasən kooperativlərin nəzdində fermer mağazaları, yaşıl marketlər, kooperativ bazarlar, topdansatış mərkəzləri təşkil ediləcəkdir. Prezidentin fərmanında Nazirlər Kabinetinə 3 ay müddətində kənd təsərrüfatı məhsulları bazarlarında kənd təsərrüfatı məhsulları kooperativlərinə ticarət yerlərinin verilməsi və kənd təsərrüfatı kooperativlərinin nəzdində satış şəbəkələrinin təşkili və fəaliyyəti qaydalarının müəyyənləşdirilməsi ilə bağlı tapşırığın verilməsi də bu məqsədə xidmət edir.

Prezidentin fərmanında ən mühüm məqamlardan biri isə Nazirlər Kabinetinə Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2020-ci illər üçün Dövlət Proqramı layihəsini 3 ay müddətində hazırlamağı tapşırmışdır. Yeni tədbirlərə cavab verəcək bu Dövlət Proqramı beynəlxalq praktikada olan yaxşı təcrübənin respublikada istifadəsinə, kənd təsərrüfatı istehsal və istehlak kooperativlərinin yaranması prosesinin sürətləndirilməsinə təkan verəcək. Şübhəsiz ki, sözügedən Dövlət Proqramının tədbirlər planında dövlət ehtiyacları üçün hər il kooperativlərdən kənd təsərrüfatı və ərzaq məhsullarının dövlət tədarükü, kooperativlər üçün sığorta mexanizminin təkmilləşdirilməsi, kooperativlərin güzəştli şərtlərlə kreditləşməsinin təmin edilməsi və sair məsələlər əksini tapacaq.

**«Qəbələ».**

## *Qarabağ müharibəsi əlillərinə və veteranlarına qayğıya dair tədbir*

"Mina Qurbanlarının Sosial-İqtisadi Problemlərinin Həllinə Kömək" İctimai Birliyi "Regionlarda şəhid ailələrinə və Qarabağ müharibəsi iştirakçılarının məşğulluğunun artırılması və işsizliyin aradan qaldırılması" layihəsi çərçivəsində 15 iyul 2016-cı il tarixdə Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzində, Qəbələ rayonunda yaşayan şəhid ailələri, Qarabağ müharibəsi əlilləri, veteranları və onların ailə üzvləri arasında sorğu keçirmişdir. Sorğuda məqsəd Qarabağ müharibəsi əlilləri və veteranlarının sosial problemlərini müəyyənləşdirmək, icra hakimiyyəti orqanları və məşğulluq mərkəzləri ilə əməkdaşlığın qurulması, təkliflər paketinin şəhid ailələri, Qarabağ müharibəsi iştirakçıları və ailə üzvləri arasında onların da təkliflərini dinləyib ictimai müzakirəyə çıxarılması, həssas qrupa daxil olan hədəf qrupunun peşə yönümlülüyünün öyrənilməsi, İcra strukturlarına və məşğulluq mərkəzlərinə təkliflər paketinin verilməsi idi.



Tədbiri giriş sözü ilə açan Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin icraçı direktoru Anar Məhərrəmov iştirakçıları salamladı, tədbirin mövzusu və proqramı haqqında onlara məlumat verdikdən sonra çıxış üçün sözü "Mina Qurbanlarının Sosial-İqtisadi Problemlərinin Həllinə Kömək" İctimayi Birliyinin sədri--layihə rəhbəri Məmmədhəsən Həsənova verdi. Məmmədhəsən Həsənov layihənin donoru, məqsədi haqqında məlumatla çıxış etdi.

**Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin mətbuat xidməti.**

## *İslahatlar və 6 aylıq makroiqtisadi göstəricilərin yekunları*

Dövlət Statistika Komitəsi cari ilin 6 ayı üzrə ölkənin makroiqtisadi göstəricilərinə aid hesabatı açıqlayıb. Hesabatda göstərilir ki, dünyada baş verən iqtisadi böhran fəsadlarının təsirini minimuma endirmək üçün ölkədə həyata keçirilən islahatlar artıq öz nəticələrini göstərməyə başlayıb. Belə ki, sənayedə, o cümlədən emal sektorunda, xüsusən qeyri-neft bölməsində məhsul istehsalı artır, əhalinin sosial müdafiəsi daha da gücləndirilir, qlobal layihələrin həyata keçirilməsi sürətlənir.

Təhlillər göstərmişdir ki, ilin 6 ayı ərzində ölkədə 27 milyard 2,3 milyon manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal edilmişdir. Əlavə dəyərin 38,5 faizi sənayedə, 11,8 faizi ticarət və nəqliyyat vasitələrinin təmirində, 9,1 faizi tikintidə, 6,8 faizi nəqliyyat və anbar təsərrüfatında, eləcə də balıqçılıqda, 2,8 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşədə, 2 faizi informasiya və rabitədə, 16,3 faizi digər sahələrdə yaradılmışdır. Bu dövrdə məhsula və idxala xalis vergilər ÜDM-in 7,6 faizini təşkil etmişdir. Yanvar-iyun aylarında əhalinin hər nəfərinə düşən ÜDM-in həcmi 2809, 7 manat olmuşdur.

Dövlət Statistika Komitəsinin hesabatında göstərilir ki, yarım il ərzində ölkə üzrə 14,75 milyard manatlıq sənaye məhsulları istehsal edilib. Bu da ötən ilin müvafiq dövrünə görə 0,6 faiz çoxdur. Sənayenin bir çox ayrı-ayrı sahələri üzrə göstəricilər artmışdır. Emal sənayesinə gəldikdə göstəricilər daha yüksəkdir. Bütünlükdə qeyri-neft sektorunda məhsul istehsalı 2,4 faiz çoxalmışdır. Maraqlıdır ki, bir müddət fasilədən sonra neft sektorunda da 0,4 faiz artım qeydə alınmışdır.

Yanvar-iyun aylarında əsas kapitla 6 milyard 769,9 milyon manat vəsait yönəldilmişdir. İstifadə olunmuş vəsaitin 83,5 faizi məhsul istehsalı, 12,4 faizi xidmət obyektlərinin, 4,1 faizi isə ümumi sahəsi 767,7 min kvadratmetr olan yaşayış evlərinin tikintisinə sərf edilmişdir. 371 faizi daxili sərmayələr olan əsas kapital vəsaitlərinin 68,9 faizi bir başa tikinti-quraşdırma işlərinin yerinə yetiriliəsinə yönəldilmişdir. Bu vəsaitlər hesabına ölkə ərazisində müxtəlif təyinatlı obyektlər tikilib istifadəyə verilmişdir.

6 ay ərzində 106,9 milyon ton yük və 916,9 milyon sərnişin daşınmışdır. Yüklərin 62,8 faizi avtomobil, 28,1 faizi boru kəməri, 6,6 faizi dəmir yolu, 2,4 faizi dəniz, 1 faizi hava nəqliyyatının payına düşmüşdür. Sərnişinlər daha çox (87,9 faiz) avtomobil nəqliyyatından istifadə etmişlər.

İnformasiya və rabitə sektorunda hüquqi və fiziki şəxslərə 798,9 milyon manatlıq xidmət göstərilmişdir. Keçən ilin 6 ayına nisbətən xidmətlərin həcmi 13,7 faiz artmışdır. Qazanılan gəlirin 81,3 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.

Xarici ticarət dövriyəsinə gəldikdə isə bu sahədə 6 milyard 804,4 milyard manatlıq məhsul satılmış və 3 milyard 387,4 milyon manatlıq ödənişli xidmətlər göstərilmişdir. Hər iki sahədə ötən ilin müvafiq dövrünə görə artım olmuşdur. Bu, göstərir ki, əhalinin alıcılıq qabiliyyəti də artmışdır.

Hesabat dövründə muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı 7,6 faiz artaraq 489,5 manata çatmışdır. Həmin müddət üçün əhalinin gəlirləri nominal ifadədə 21 milyard 493,9 milyon manat olmuşdur. Bu da keçən ilin müafiq dövrünə görə 4 faiz artıma bərabərdir.

**«Qəbələ».**